**İnvestisiya təşviqi sənədinin verilməsi**

**Q A Y D A S I**

1. Bu Qayda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (bundan sonra – Nazirlik) tərəfindən hüquqi şəxslərə və fərdi sahibkarlara (bundan sonra – sahibkar) investisiya təşviqi sənədinin verilməsi qaydasını müəyyən edir.

2. İnvestisiya təşviqi sənədi bu Qaydanın 3-cü hissəsində göstərilən meyarlara tam cavab verən investisiya layihələrini təqdim etmiş sahibkarlara verilir. İnvestisiya təşviqi sənədi Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş güzəştləri əldə etməyə əsas verən sənəddir.

3. İnvestisiya təşviqi sənədinin verilməsi üçün meyarlar aşağıdakılardır:

3.1. investisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahəsi;

3.2. investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ;

3.3. investisiya layihəsinin həyata keçiriləcəyi inzibati ərazi vahidləri.

4. Bu Qaydanın 3-cü hissəsində göstərilən meyarlara uyğun investisiya fəaliyyətini həyata keçirmək istəyən sahibkar Nazirliyə ərizə ilə müraciət edir.

5. Ərizə ilə birlikdə aşağıdakı sənədlər təqdim olunur:

5.1. bu Qaydanın 3-cü hissəsində göstərilən meyarlara tam cavab verən investisiya layihəsi (biznes planı);

5.2. bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulmuş məbləğin 10 faizinin müvafiq investisiya layihəsi üzrə investisiya kimi qoyulduğunu təsdiq edən sənəd;

5.3. ərizəçinin vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti.

*5-1. "İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 878 nömrəli Fərmanına uyğun olaraq "Turizm və rekreasiya zonalarının hüdudları daxilində Baş inkişaf planlarına daxil olan turizm xidməti obyektlərinin tikintisi" iqtisadi fəaliyyət sahəsi üzrə Nazirlik tərəfindən "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 13.2.2-ci və 19.7-ci maddələrinə uyğun olaraq "bir pəncərə" prinsipi əsasında investisiya layihəsinin turizmin inkişafı üzrə strateji planlara, turizm və rekreasiya zonalarının Baş inkişaf planlarına, turizm xidmətlərinin təsnifatına, regional səviyyədə turizm xidmətlərinin (məhsulun müxtəlifliyi) proporsional bölgüsünə uyğunluğu barədə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin rəyi alınır.*[2]

6. Sahibkar, bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulmuş məbləğin 10 faizi müvafiq investisiya layihəsi üzrə investisiya kimi qoyulmamışdan əvvəl, onun investisiya layihəsinin bu Qaydanın 3-cü hissəsində göstərilən meyarlara uyğunluğunun müəyyən edilməsi üçün Nazirliyə müraciət etmək hüququna malikdir. Nazirlik bu cür müraciətə 5 iş günü müddətində baxaraq cavablandırır.

7. Nazirlik bu Qaydanın 4-cü hissəsində nəzərdə tutulmuş müraciətə 5 iş günü müddətində "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq baxır. İnvestisiya layihəsi bu Qaydanın 3-cü hissəsində göstərilmiş meyarlara tam cavab verdiyi və təqdim olunmuş sənədlərdə çatışmazlıqlar olmadığı halda Nazirlik investisiya təşviqi sənədini sahibkara verir.

8. Nazirlik verdiyi investisiya təşviqi sənədi barədə məlumatı 3 gün ərzində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə verir.

9. Nazirlik investisiya təşviqi sənədi verilmiş investisiya layihəsinin bu Qaydanın 3-cü hissəsində göstərilən meyarlar pozulmaqla həyata keçirildiyi haqqında əsaslı məlumat əldə etdikdə və bu pozuntuların aradan qaldırılması mümkün olmadıqda, investisiya təşviqi sənədinin ləğvinə dair qərar qəbul edərək, bu barədə 3 gün ərzində sahibkara, Azərbaycan Respublikasının Vergilər Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verir.

10. İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidləri *Azərbaycan Respublikasının Prezidenti* tərəfindən müəyyən olunur.[3]

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 5 sentyabr 2016-cı il tarixli **1025** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 6 sentyabr 2016-cı il, № 195, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 9, maddə 1462)**
2. 31 yanvar 2017-ci il tarixli **1218** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 1 fevral 2017-ci il, № 22, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №1 , maddə 65)**
3. 31 iyul 2017-ci il tarixli **1564** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 1 avqust 2017-ci il, № 164, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №7 , maddə 1374)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 5 sentyabr 2016-cı il tarixli **1025** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 6 sentyabr 2016-cı il, № 195, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 9, maddə 1462)** ilə 3.2-ci bənd ləğv edilmişdir.

[2] 31 yanvar 2017-ci il tarixli **1218** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 1 fevral 2017-ci il, № 22, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №1 , maddə 65)** ilə "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası"na yeni məzmunda 5-1-ci hissə əlavə edilmişdir.

31 iyul 2017-ci il tarixli **1564** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 1 avqust 2017-ci il, № 164, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №7 , maddə 1374)** ilə "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası"nın 5-1-ci hissəsində "**ərizələrə bu Qaydanın 5-ci hissəsində nəzərdə tutulan sənədlərlə yanaşı,**" sözləri "**Nazirlik tərəfindən "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 13.2.2-ci və 19.7-ci maddələrinə uyğun olaraq "bir pəncərə" prinsipi əsasında**" sözləri ilə, "**əlavə olunur**" sözləri isə "**alınır**" sözü ilə əvəz edilmişdir.

[3] 5 sentyabr 2016-cı il tarixli **1025** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 6 sentyabr 2016-cı il, № 195, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 9, maddə 1462)** ilə "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası"nın 10-cu hissəsində "**Azərbaycan Respublikasının Nazirlər Kabineti**" sözləri "**Azərbaycan Respublikasının Prezidenti**" sözləri ilə əvəz edilmişdir.